

# Müdrikliyin, qətiyyətin və inamın təsdiqi

*Ulu öndər Heydər Əliyevin demokratik yolla, yüksək səs çoxluğu ilə Prezident seçilməsindən sonra ölkəmiz dünya birliyinə inteqrasiya yoluna qədəm qoydu. Xalqın təkidli tələbi ilə respublikaya ikinci dəfə rəhbərliyə qayıdan ümummilli lider ölkəni böhran vəziyyətindən çıxarmaq üçün bütün sahələr üzrə genişmiqyaslı islahatlar həyata keçirdi. Bu işlərə ilk olaraq nizami milli ordunun formalaşdırılması ilə başlandı, silahlı qüvvələrin maddi-texniki bazası möhkəmləndirildi, mühüm qanunlar qəbul edildi. Keçmiş Ermənistan-Azərbaycan münaqişəsində atəşkəsə nail olundu. Qonşu ölkənin təxribatlarının, eyni zamanda daxildəki anti-Azərbaycan qüvvələrin qarşısının alınması ilə respublikada daxili vəziyyət stabilləşdi.*

İqtisadiyyatın dinamik inkişafını dövlət siyasətinin əsas istiqaməti olaraq müəyyən edən dahi liderin təşəbbüsü ilə 1994-cü il sentyabrın 20-də "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft şirkəti ilə xarici şirkətlər arasında "Əsrin müqaviləsi" bağlandı. Bununla da müstəqilliyin ilk illərində çökmüş ölkə iqtisadiyyatı dirçəlməyə başladı, dünyaşöhrətli, müdrik siyasətçi Heydər Əliyevə olan böyük etimad və etibar sayəsində bir vaxtlar respublikamızın iqtisadiyyatına sərmayə yatırmağa risk etməyən ölkələr hərtərəfli əlaqələrin inkişafına səy göstərir, böyük həcmdə investisiyalar yatırırdılar. Müstəqil Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT Baş Məclisində çıxış edərək respublikanın daxili və xarici siyasəti, beynəlxalq aləmdə tutduğu mövqeyini bildirirdi. İşğalçı Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, xalqın başına gətirilən müsibətlər, eyni zamanda respublikanın xarici siyasəti ilə bağlı fikirləri BMT Baş Məclisinin sessiyasında beynəlxalq ictimaiyyətə çatdırılması çox vacib bir hadisə idi.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev milli televiziya və radio ilə xalqa müraciət edib

Qısa müddət ərzində əldə olunan nailiyyətlər xalqın ümummilli liderini öz xilaskarı olaraq hakimiyyətə gətirməklə vaxtında və düzgün qərar verdiyini sübuta yetirdi. Çətin, mürəkkəb, ziddiyyətli günlər geridə qalır, xalqın rifahı tədricən yaxşılaşır, ümumi vəziyyət normallaşırdı. Bütün bunlar öz nicatını ulu öndərdə görən xalqda ruh yüksəkliyi, sabaha inam yaratsa da, daxildəki mənfi qüvvələrin rahatlığını pozurdu, çünki ölkəni talamaq üçün tutduqları vəzifələr əllərindən çıxmışdı. Buna görə də Azərbaycanın inkişafını, xalqın yaşayış tərzinin yaxşılaşmasını deyil, respublikanı parçalamaq, ayrı-ayrı bölgələrə ağalıq etmək istəyən daxili və xarici düşmənlər məkrli planlarını həyata keçirmək üçün hər vasitəyə əl atdılar. Həmin dövrdə ağır cinayətlər üstündə məhkəmə istintaqı altında olan sabiq müdafiə naziri Rəhim Qazıyev, sabiq müdafiə nazirinin müavini Baba Nəzərli, Əlikram Hümbətov, Arif Paşayev Milli Təhlükəsizlik Nazirliyinin istintaq təcridxanasından, ölüm cəzasına məhkum olunmuş digər şəxslər həbsxanadan qaçırıldılar. Həmçinin dövlətin yüksək vəzifəli şəxsləri - Ali Sovet sədrinin birinci müavini Afiyəddin Cəlilov, Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov hakimiyyəti ələ keçirmək istəyən quldur dəstələrinin üzvləri tərəfindən sentyabrın 29-da qətlə yetirildilər. Bütün bu hadisələrin törədilməsində məqsəd Azərbaycan dövlətçiliyinə zərbə vurmaq idi.

Ölkədə qarşıdurma yaratmaq, vəziyyəti gərginləşdirməklə öz maraqlarına xidmət edən Ayaz Mütəllibov, Rəhim Qazıyev, Əlikram Hümbətov, Vaqif Hüseynov kimi vətən xainləri sabiq baş nazir Surət Hüseynovu, daxili işlər nazirinin sabiq müavini Rövşən Cavadovu dövlət çevrilişi etməyə sövq etdilər. 1994-cü il oktyabrın 4-də Surət Hüseynov və Rövşən Cavadovun başçılığı ilə dövlət çevrilişinə silahlı cəhd göstərildi, Mahir Cavadovun rəhbərliyi ilə XTPD-nin cinayətkar qüvvələri Respublika Prokurorluğuna silahlı basqın törədərək vəzifəli şəxslərə zorakılıq tətbiq etdilər, dövlət əmlakına ziyan vurdular. Surət Hüseynovun Gəncədə yerləşən qanunsuz dəstəsi isə onun göstərişi əsasında silahlı basqın yolu ilə Gəncə İcra Hakimiyyətini, hüquq-mühafizə orqanlarını, dövlət əhəmiyyətli obyektləri ələ keçirdi və bu hərəkətlərini digər rayonlarda da davam etdirməyə çalışdılar.

Azərbaycanı dağıtmaq məqsədinə xidmət edən bu cəhdlərin qarşısını almaq üçün Prezident Heydər Əliyev respublika milli televiziyası və radiosu ilə çıxış edərək xalqı birliyə, dövlət müstəqilliyini qorumağa çağırdı. Son günlər ölkədə faciəli hadisələrin baş verdiyini, bu hadisələrin törədilməsində məqsədin yalnız əldə olunmuş sabitliyi pozmaq, xalqın dövlətə, dövlətçiliyə olan inamını sarsıtmaq, qarşıdurma yaratmaq olduğunu bildirdi: "Mən sentyabrın 29-da Amerika Birləşmiş Ştatlarında olarkən çox ağır xəbər aldım. Həmin gün axşam Azərbaycan Respublikasının iki dövlət xadimi - Ali Sovetin sədr müavini Afiyəddin Cəlilov və Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov qəddarcasına, vəhşicəsinə qətlə yetirilmişlər. Mən bu xəbəri BMT Baş Məclisinin sessiyasında çıxış etməyə gedərkən eşitdim. Bu acı xəbər məni çox üzdü, sıxdı, eyni zamanda məni səfərbər etdi və bildirdi ki, bəli, respublikamızda sabitliyi pozmaq, Azərbaycan dövlətinə, ölkəmizin müstəqilliyinə təcavüz etmək istəyən qüvvələr var. Onlar həm Azərbaycanın daxilində, həm də onun xaricindədir". İki nəfər dövlət xadiminin qətlə yetirilməsinin müstəqil Azərbaycan dövlətinə qarşı yönəldilmiş siyasi terror adlandıran ölkə başçısı bu təxribatların tarixin çətin sınaqlarından çıxmış müdrik xalqımızın iradəsini sarsıtmayacağına, əksinə, onu bu çətinliklərə qarşı daha mətanətli edəcəyinə əmin olduğunu bildirdi: "Əlbəttə, bu hadisələr bizi üzür, sıxır, kədərləndirir… Dünən də belə bir cinayət hadisəsi baş vermişdir. Dünən təxminən axşam saat 8 radələrində Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvü qanunsuz olaraq silahlı halda, qəflətən Azərbaycan Respublikası Prokurorluğunun binasına daxil olmuş, orada atəş açaraq bir çox yerləri dağıtmışdır. Nəhayət, onlar baş prokurorun iş otağına girərək ona ağır fiziki xəsarət yetirmişlər… Əgər bu orqana və onun başında duran adama qarşı təcavüz edilirsə, deməli, Azərbaycan dövlətinə qarşı təcavüz olunur. Biz bunu belə qiymətləndiririk".



Dahi lider bu silahlı dəstənin qan tökülmədən zərərsizləşdirilməsi, məsələnin dinc yolla, danışıqlar vasitəsilə həllinə çalışdığını bildirərək vurğuladı ki, Azərbaycanın hər bir vətəndaşı dövlət üçün əzizdir. Mən hər bir vətəndaşı qorumalıyam. Əgər kim isə cinayət etmişdirsə, onu bu əməldən çəkindirməliyəm və o, belə hərəkəti üçün qanun çərçivəsində cavab verməlidir. Mən hər bir məsələnin dinc yolla, qarşılıqlı anlaşma və danışıqlar vasitəsilə həllinə tərəfdar olduğumu bildirmişəm və indi də bu mövqedən çıxış etdim.

Müdrik dövlət başçısı qanunsuz hərəkətlərinə, cinayət törətmələrinə baxmayaraq, onları qəbul etməyə, dinləməyə, eyni zamanda bu cinayətkar yoldan çəkindirməyə, məsələni qanun çərçivəsində, Azərbaycan dövlətçiliyinin qorunması şərtləri daxilində həll etməyə hazır olduğunu bildirsə də, onların 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin - XTPD-nin bazasında yerləşdikləri və cinayətlərini davam etdirdiklərini dedi: "Buna görə də bu gün mən Azərbaycan Prezidenti kimi, öz mövqeyimi bildirmək istəyirəm… Əziz qardaşlar, əziz bacılar, əziz həmvətənlər, bir deyin görək, Azərbaycanda hakimiyyət uğrunda nə qədər mübarizə gedə bilər? Nə qədər, nə vaxtadək? Heç bir il keçməyibdir ki, biz vətəndaş müharibəsinin qarşısını almışıq. Ötən ilin iyununda Gəncədə baş vermiş qardaş qırğınının qarşısını aldıq. Biz Azərbaycanı parçalamaq istəyən qüvvələri təkləyib təcrid etdik. Halbuki Azərbaycan artıq parçalanmışdı - cənubda da, başqa yerlərdə də. Bəzi cinayətkar qüvvələr Azərbaycanın ayrı-ayrı yaşayış məntəqələrini əllərinə keçirmişdilər. Biz bunların qarşısını aldıq, cinayətkarları təcrid etdik, onları qanun qarşısında cavab verməyə gətirdik. Budur, yeni hadisələr baş verir. Azərbaycanı yenə də sarsıtmaq, dağıtmaq, onun müstəqilliyinə qəsd etmək istəyirlər - bütün bunları ayrı cür qiymətləndirmək olmaz".

Xalqını, millətini, Vətəni canından artıq sevən ümummilli lider müstəqil Azərbaycanın dövlətçiliyinin təhlükə qarşısında olduğunu deyərək xalqı ayağa qalxıb öz mövqeyini bildirmək, əl-ələ verib bu ağır vəziyyətdən çıxmaq üçün həmrəyliyə, milli birliyə çağırdı. Azərbaycan xalqı da etibar etdiyi, güvəndiyi liderinin ətrafında sıx birləşərək dövlətçiliyinə, müstəqilliyinə xor baxan xainlərin məkrli planlarını həyata keçirməyə imkan vermədi. Ulu öndər Heydər Əliyevin televiziya ilə xalqa müraciət etməsi nəticəsində yüzlərlə insan, o cümlədən müxalifətçilər də Prezident Aparatının qarşısına yığışaraq ölkə Prezidentinin siyasi kursunu müdafiə etdiklərini birmənalı şəkildə bəyan etdilər.

Ölkə başçısının düşünülmüş siyasəti, xalqın iradəsi Surət Hüseynovu, Rövşən Cavadovu cinayət əməllərini dayandırmağa məcbur etdi. Rövşən Cavadov məsuliyyətdən yaxa qurtarmaq üçün xalq qarşısında peşmançılığını bildirdi. Surət Hüseynovun silahlı qüvvələri tərksilah edildi, onun cinayət yoldaşları və müxtəlif dövlət vəzifələrində oturan məsləkdaşları həbs edildi, özü isə havadarlarının köməyi ilə respublikadan qaçaraq xaricdə sığınacaq tapdı. 1994-cü il 4 oktyabrda həyata keçirilməsi planlaşdırılan dövlət çevrilişinin qarşısı qətiyyətlə alındı. Dahi lider Heydər Əliyevin yüksək idarəçilik bacarığı, müdrik siyasəti, xalqın öz liderinə dəstəyi sayəsində dövlət çevrilişinə cəhd edən qüvvələr məhv edildi.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**